# “Ulduz”un Füzuli sevgisi

**“Ulduz” jurnalının dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş noyabr–dekabr sayı çap olunub.**

Jurnalın bu xüsusi sayı “Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı” ilə açılır. Sonrakı səhifədə ümummilli lider Heydər Əliyevin Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqi yer alıb.

“Ulduz”un, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin və “Təhsil” Nəşriyyatının birgə layihəsi olan xüsusi nömrənin redaktoru filologiya elmləri doktoru Pərvanə Bəkirqızıdır.

Xüsusi buraxılışda “Heydər Əliyevin Füzuli sevgisi”, Firidun bəy Köçərlinin “Molla Məhəmməd Bağdadi “Füzuli”



təxəllüsü, Mirzə Cəlilin “Füzuli”, Abdulla Şaiqin “Füzuli haqqında düşüncələrim”, Bəkir Çobanzadənin “Füzuli və onun yeri”, “Cəfər Cabbarlının “Füzuli haqqında”, Əkrəm Cəfərin “Füzulinin yubileyi qarşısında qəlbim”, Məsud Əlioğlunun “Füzuli və müasir ədəbiyyatşünaslığımız” məqalələri verilib. Bu sayda Əliağa Vahidin “Füzulidən təxmis”, Bəxtiyar Bahabzadənin “Onun pərişanlığı” və “Qəlb şairi” yazılarını da oxuya bilərsiniz. Əli Kərimin “Füzuli”, Zəlimxan Yaqubun “Görüş – ayrılıq”, Məmməd Cəfərin “Füzuli sevir”, Rəsul Rzanın “Uzaq ellərin yaxın töhfələri”, Samət Əlizadənin “Füzuli sözünün sehri”, Yaşar Qarayevin “Türk-İslam intibahının zirvəsi Füzuli”, Nihad Sami Banarlının “Füzulinin duası” adlı qeydlərində də dahi şairin yaradıcılığından söz açır.

Xüsusi buraxılışda Füzulinin söz gülşənindən seçmə qəzəllər təqdim olunur. “Dərgidə sərgi” rubrikası altında isə Əfşan Rafaelqızının əsərləri yer alıb.

***XQ***

Xalq qəzeti .- 2024.-5 dekabr (№268).- S.12.